# Türkistanda yeni istiqamətlər müəyyənləşdiriləcək



Güllü Yoloğlu

Dünya Türkologiya Mərkəzinin rəhbəri



**Bu günə qədər də Qazaxıstanın Türkistan şəhəri Türk Dünyasının ruhani, dini paytaxtı kimi qəbul edilirdi. Hətta deyirdilər ki, "kim üç dəfə Xoca Əhməd Yasəvinin məzarını ziyarət edərsə, Həccə getmiş sayılır". Hər il Həzrət Sultan deyə anılan bu sufi böyüyünün məzarını minlərlə adam ziyarət edirdi. Lakin balaca bir şəhərin daha çox zəvvarı qəbul etməsi üçün infrastruktur yetərli deyildi. 2000-ci illərin əvvəllərində Türkiyənin bölgəyə marağı, 1991-ci ildə açılan 13 fakültəlik Türkistan Dövlət Universitetini 1993-cü ildə 22 min tələbəlik Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universiteti adlandıraraq bölgəyə yeni nəfəs verməsi, tikinti-quruculuq işlərini sürətləndirməsi, Türk Dünyasından tələbələrin, müəllimlərin universitetə cəlb olunması doğrudan da buranı Türk Dünyasının kiçicik bir modelinə çevirmişdi**

***Məlum olduğu kimi, 2009-cu ilin oktyabr ayının 3-dəTürkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Naxçıvanda keçirilmiş Zirvə Görüşündə türk dövlətləri arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradılmışdır. O vaxt saziş Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan liderləri tərəfindən imzalanmışdır.***

***Ötən 10 ildən artıq müddətdə TürkŞurası bir təşkilat kimi əhəmiyyətli inkişaf yolu keçmişdir. Ölkələrimiz arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar, turizm, informasiya və kommunikasiya texnologiyaları və digər sahələrdə əlaqələr genişlənmiş, BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq yaranmışdır. TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası kimi qurumların sayəsində zəngin maddi və mənəvi irsimiz tədqiq olunur, dünya çapında təbliği ön plana çəkilir. Türkdilli Ölkələrin Parlament Assambleyası bir neçə parlamentlərarası təşkilatlarla sıx və uğurla əməkdaşlıq edir. Bütün bunlar xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin daha da genişlənməsinə xidmət edir.***

2019-cu il oktyabrın 3-də Bakıda ziyalıların, millət vəkilləri və səfirlərin, səfirliklərin əməkdaşlarının iştirakı ilə Dünya Türkologiya Mərkəzinin ilk iclası keçirilmişdir. Tədbir Türk Şurasının yaradıldığı Naxçıvan Sammitinin 10 illiyinə həsr olunmuşdur. Türk Mədəniyyəti və İrsi Fondunun Prezidenti Günay Əfəndiyevanın da mənəvi dəstəyilə keçirilən bu tədbirdə Azərbaycanın türkologiya elminin mərkəzi olmağa daha çox haqqının olması, Bakıda Dünya Türkologiya Mərkəzinin yaradılmasının məqsədəuyğunluğu 1926-cı ildə I Türkoloji qurultayın Bakıda keçirilməsi, hələ Sovetlər birliyi zamanında "Sovetskaya Tyurkologiya" jurnalının məhz Bakıda çap olunması kimi tarixi hadisələrlə əsaslandırılmışdır.

Həmin il oktyabrın 15-də Bakıda Türk Şurasının yaradılması haqqında Naxçıvan sazişinin (3 oktyabr 2009) imzalanmasının 10 illiyinə həsr edilən VII Zirvə Görüşü keçirildi.

***Məlumdur ki, Zirvə görüşləri əməkdaşlığın müxtəlif sahələrinə aid olan mövzulara həsr olunur. 2019-cu ildə keçirilən Zirvə toplantısı "Kiçik və orta sahibkarlığın inkişafı" mövzusuna həsr olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bir çox mötəbər tədbirlərdə olduğu kimi, burada da Azərbaycanın müstəqillik tarixinin ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin həllində rəsmi İrəvanın destruktiv siyasətinə görə irəliləyişin olmamasından, Ermənistanın 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsindən, işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparıldığından, Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, İslam abidələri və məscidlərimizin dağıdılmasından, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsindən danışmışdır.***

Dövlət başçısı Ermənistanın müsəlman ölkələri ilə sıx əməkdaşlıq qurmağa çalışmasını, ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıtdığını vurğulayaraq qeyd etmişdir ki, belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilməz və dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir...

Azərbaycan Prezidenti münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbul edildiyini, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatların da oxşar sənədlər qəbul etdiklərini, lakin Ermənistanın bu qətnamə və qərarların tələblərinə məhəl qoymadığını, beynəlxalq hüquqi öhdəliklərinin icrasından boyun qaçırdığını Sammit iştirakçılarının diqqətinə çatdırmışdır.

"Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır" – deyən Azərbaycan Respublikasının prezidenti cənab Ali Baş Komandan İlham Əliyev cəmi bir il sonra torpaqlarımızı hərbi yolla işğaldan azad edir və bölgənin mənzərəsini dəyişməklə yanaşı yeni iqtisadi layihələrə, tərəfdaşlıqlara da yol açır.

Onu da qeyd edək ki, 2019-cu ilin 15 oktyabrından Azərbaycan Qırğızıstandan Türk Şurasına sədrliyi qəbul etmişdir.Türk Şurasının növbəti Sammitinin 2020-ci ilin payızında Qazaxıstanın Türkistan vilayətində keçirilməsi nəzərdə tutulmuşdu. Bununla əlaqədarQazaxıstanın ilk prezidenti – Elbası Nursultan Nazarbayev və ölkə başçısı Kasım-Jomart Tokayev Sammitə qədər şəhərin bütün lazımi obyektlərlə təmin olunması üçün tikinti-quruculuq işlərinə diqqət yetirirdilər. Yolların və hava limanının tikintisinin başa çatdırılması,Konqress-holl, Məktəblilər Sarayı, akimatın ofis binaları, üzmə hovuzlu idman kompleksləri, 7 min nəfərlik Stadion, Dram Teatrının, Vilayət elmi-universal kitabxanasının, şəhər Park-Atraksionunun, "Ulıdala Eli" Mərkəzinin və X.Ə.Yasəvi Muzeyinin, Böyük İpək Yolu sənətkarlarının Milli Mərkəzinin binasının və "Vizit-Mərkəzi"n, hər birində 120 otaq olan Rixos Turkestan və Hampton by Hilton otellərinin, Türkiyənin Sembol Construction şirkəti tərəfindən «Karvan-saray» adlı çoxfunksiyalı turist kompleksinin tikintisi,Kültöbə (Kültəpə) yaşayış yerində arxeoloji parkın salınması nəzərdə tutulmuşdu. Artıq bu obyektlərin, demək olar ki, hamısı hazır vəziyyətdə ziyarətçilərini gözləyir...

Bütün bu hazırlıqlara baxmayaraq, 2020-ci ilin payızında, daha dəqiq desək, Türk Şurasının əksər sammitlərinin keçirildiyi oktyabr ayında VIII Zirvə Görüşü baş tutmadıvə tədbir 2021-ci ilin 21 martına təyin olundu. Qazaxıstan mediası sammitin təxirə salınma səbəbi kimi COVİD-19 pandemiyasını göstərsə də,pandemiyanın hələ davam etdiyini və mart ayında səngiyəcəyini ÜST də daxil olmaqla heç bir qurumun proqnozlaşdırmadığınınəzərə alsaq, əslsəbəbin Türk Şurasının hazırkı sədri olan Azərbaycanın tarixi torpaqlarını erməni qəsbkarlardan təmizləməsi, II Qarabağ savaşı olduğunu düşünürük.

***Təsadüfi deyil ki, elə müharibənin ilk günlərində (28 sentyabr 2020-ci il) Türk Şurasının Qazaxıstandan olan baş katibi Bağdad Amreyevin adından Qarabağ münaqişəsi ilə bağlı bəyanat yayıldı. Bəyanatda deyilirdi:***

***"Türk Şurası beynəlxalq hüququn norma və prinsiplərinə sadiq olduğunu bir daha təsdiqləyir və Ermənistan – Azərbaycan münaqişəsinin təcili olaraq Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyini bir daha vurğulayır.Bu çərçivədə Türk Şurası BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrdə Ermənistan silahlı qüvvələrini Azərbaycan Respublikasının bütün işğal olunmuş ərazilərindən dərhal, qeyd-şərtsiz və tam şəkildə geri çəkilməyə çağırdığını xatırladır".***

***44 günlük Vətən müharibəsindəki qələbəmiz bölgədə, eləcə də Türk Şurası dövlətlərinin Azərbaycana, regionda yaranmış yeni iqtisadi layihələrə, imkanlara, Türkiyənin bölgədəki gələcək roluna və digər məsələlərə baxışını dəyişdi. Əminik ki, mart ayında Türkistanda keçiriləcək VIII Sammit yeni məqsəd və vəzifələrlə gündəmə gələcək.***

Onu da qeyd edək ki, Qazaxıstanın birinci Prezidenti və Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev VII Bakı Sammitində TürkPA, TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Ağsaqqallar Şurası, eləcə də Türk Ticarət-Sənaye Palatası kimi qurumların diqqətini Türkistana, "Türk baxışı 2040" proqramına, yeni "yol xəritələri"nə də yönəltmiş, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasını təşkilat səviyyəsinə qədər yüksəltməyin tam zamanı olduğunu, eyni köklərə malik olan dövlətlərin "türkdilli" deyil, Türk Dövlətləri Təşkilatı adlandırılmasını gündəmə gətirmişdir. Artıq beynəlxalq münasibət, güc mərkəzlərinin dəyişməsi, nüfuz və əlaqələr bunu daha qətiyyətlə söyləməyə imkan verir.

Beləliklə, Türkistan şəhərində keçiriləcək mart Sammitindən gözlədiklərimiz çoxdur. Türkistan Sammiti həm Türk Dünyasının, həm də birliyimizdən narahat olan digər dünya dövlətlərinin diqqət mərkəzində olacaq.

Onu da qeyd edək ki, Sammitin Türkistan şəhərində keçirilməsi heç də təsadüf deyil. 2018-ci ildən Türkistana diqqət yetirən Nursultan Nazarbayev bu şəhəri Türk Dünyasının Mərkəzinə çevirməkdə qərarlıdır. Belə mərkəzlər Türk Dünyasının bir çox yerlərində yaradılır. Oş şəhəri türk dünyasının mədəniyyət mərkəzi seçilib, Qırğızıstanda "Oş türk sivilizasiyasının paytaxtıdır" adlı tədbirin keçirilməsi, Özbəkistanın da İslam Mədəniyyət Mərkəzi yaratması üçün səylər göstərməsi dediyimizə sübutdur...

Türkistan Qazaxıstanın ən qədim şəhəri olub V əsrdə (418-ci ildə) salınmışdır. Şəhərin əvvəlki adları Şavqar, Şavaqar (X əsr) və Yassı (XII əsr) idi. Rəvayətə görə, Əmir Teymur yuxusunda görür ki, əvvəlcə Arıstan Babın məzarını düzəltmək lazımdır, sonra Xoca Əhməd Yasəvininkini. Ona görə də zəvvarlar bu ardıcıllığa riayət edərək "Arıstan Babı ziyarət et, Xoca Əhməd Yasəvidə gecələ" deyiminə əməl edirlər. 1396-1398-ci illərdə Əmir Teymur Həzrət Sultanın məzarı üstündə türbə tikdirir. O vəfat etdikdən sonra Buxara xanı II Abdulla xan yarımçıq qalan işi davam etdirir. XV əsrdən şəhərin adı Türkistan kimi çəkilir və Rusiya İmperiyasına birləşdirilənə qədər Qazax xanlığının paytaxtı olmuşdur (XVI-XVIII).

***Bu günə qədər də Qazaxıstanın Türkistan şəhəri Türk Dünyasının ruhani, dini paytaxtı kimi qəbul edilirdi. Hətta deyirdilər ki, "kim üç dəfə Xoca Əhməd Yasəvinin məzarını ziyarət edərsə, Həccə getmiş sayılır". Hər il Həzrət Sultan deyə anılan bu sufi böyüyünün məzarını minlərlə adam ziyarət edirdi. Lakin balaca bir şəhərin daha çox zəvvarı qəbul etməsi üçün infrastruktur yetərli deyildi. 2000-ci illərin əvvəllərində Türkiyənin bölgəyə marağı, 1991-ci ildə açılan 13 fakültəlik Türkistan Dövlət Universitetini 1993-cü ildə 22 min tələbəlik Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universiteti adlandıraraq bölgəyə yeni nəfəs verməsi, tikinti-quruculuq işlərini sürətləndirməsi, Türk Dünyasından tələbələrin, müəllimlərin universitetə cəlb olunması doğrudan da buranı Türk Dünyasının kiçicik bir modelinə çevirmişdi. O müəllimlərin arasında Azərbaycandan mənim də olmağım, bu günə qədər Altaydan, Qaqauz Yerindən, Özbəkistandan, Türkiyədən, Qırğızıstandan və digər yerlərdən olan tələbələrimlə əlaqələrimizin davam etməsi "yasəvili" olmağın ayrıca bir xoşbəxtlik olduğundan xəbər verir.***

2000-ci illərin əvvəlində Ankarada XII əsrin sufi şairi, mistiki olan Xoca Əhməd Yasəvi Vakfının başında əski Kültür Bakanı Namık Kemal Zeybek dururdu və onun nəzarəti altında fəaliyyət göstərən universitet, həqiqətən, birlik, bərabərlik nümayiş etdirirdi.

Dağlıq Qarabağ müharibəsində TÜRKSOY və TDƏŞ-in birmənalı şəkildə Azərbaycanı dəstəkləməsi mövzuya həssas yanaşan qonşuları narahat etməyə bilməzdi. "Böyük Turan" adı artıq bəzi dairələrdə təhlükəli söz birləşməsi kimi səslənməyə başlamışdır. İndi bir çox "tyurkoyed"in məqsədi qonşu ölkələrdə həyəcan təbili çalmaq, təhlükənin lap yaxında olduğunu vurğulamaq və təbii ki, ara vurmaqdır. 2026-2028-ci illərdə Türk Şurasının ortaq mal, işçi qüvvəsi, xidmət və investisiya bazarının yaradılmasını planlaşdırması da qarışqa yuvasına çöp salmış kimi reaksiya doğurub...

***Türk dövlətlərininvahid mərkəzdən idarə olunacaq və NATO-nu dagerıdə qoya biləcək ordu birliyinin yaradılması kimi fikirlərin bəzi dairələrdə səslənməsi də ciddi narahatlıq yaradıb. Qazaxıstanın və Qırğızıstanın KTMT-də olması məsələni qəlizləşdirsə də, Qarabağ məsələsi bu qurumun kağız üzərində olduğunu göstərdi...***

***Azərbaycanın Ali Baş Komandan, Prezident İlham Əliyevin başçılığı altında Vətən müharibəsindəki inamlı qələbəsihəm ölkəmizin, həm də dövlət başçımızın beynəlxalq aləmdəki nüfuzunu daha da artırmışdır.Bu isə Azərbaycanın iştirakçısı olduğu beynəlxalq siyasi, iqtisadi əməkdaşlığın, regional və qlobal əhəmiyyətli layihələrin daha böyük uğurlarla nəticələnməsinə eniş imkanlar açır.***